**UOT:** 1 (091).
**KBT:** 60.03
**MJ №** 131

# Aristofanın komediyalarında ümumiləşdirilmiş obrazlar

**Nailə Əsədova***

**Abstrakt.** Aristofan həyatın ümümi və səciyyəvi cəhətlərini özündə əks etdirən bədii obrazlar yaratmışdır. Bu bədii obrazlar öz spesifik xüsusiyyətləri ilə inkası olduğu varlığın ən səciyyəvi cəhətini ifadə etmişdir. Bu səciyyəvi cəhətsiz də ümuminin mənasını anlamaq qeyri-mümkündür.

Tipik obrazlar ustası Aristofan öz komediyalarında ictimai ideyaları, həyat hadisələrinin mahiyyətini bədii ümumiləşdirmiş obrazların vasitəsilə konkret, aydın ifadə edib göstərə bilmişdir. İnsanların tipik cəhətlərini ayırıb seçmək, onları bədii ümumiləşdirmə səviyyəsinə qaldıra bilmək məharəti, həmçinin fəlsəfi baxışlarının inikası dramaturqun komediyalarını daha da zənginləşdirir. Bütün bu fəlsəfi ümumiləşdirmələr, konkret tip insanlara məxsus dünyagörüş stereotiplərinin bədii əsərdə inikası Aristofan yaradıcılığının əsas xüsusiyyətlərindəndir, dramaturqun fəlsəfi baxışlar sisteminin bir ifadəsidir.

**Açar sözlər:** Aristofan, Afina, tipik cəhət, dramaturq, ümumiləşdirilmiş obraz, dram janırı, komediya

## 1.Giriş

Yaşadığı dövrdə baş vermiş hadisələrin dinamik inkişafını bədii gülüşdən, kinayədən istifadə etməklə öz komediyalarında əks etdirən antik yunan dramaturqu Aristofan (təqr. e.ə. 446-386) bəşər fikir tarixinə əvəzsiz, möhtəşəm nümunələr vermişdir. Onun komediyaları heç vaxt öz bədii dəyərini itirməyən sənət inciləridir.

Aristofan haqlı olaraq *“komediyanın atası”* adını almışdı. Doğrudur, komediya janrına bənzər bir tərzdə ədəbi nümunələr Aristofana qədər də mövcud idi. Lakin, Aristofan komediya janrının ruhunu ifadə edən əsərlər ortaya qoydu.

* Fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA, Fəlsəfə və Sosiologiya İnstitutu “Estetika” şöbəsinin aparıcı elmi işçisi; Bakı, Azərbaycan
E-mail: nailya_asadova@inbox.ru
https://orcid.org/0000-0002-0572-2454

**Məqaləyə istinad:** Əsədova, N. [2022]. Aristofanın komediyalarında ümumiləşdirilmiş obrazlar. *“Metafizika” jurnalı, 5*(3), səh.58-67.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 23.05.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 03.07.2022*
*Çapa qəbul edilmişdir: 03.09.2022*

Aristofana qədər də mövcud olan, komediya janrına bənzər tərzdə ədəbi nümunələr nə üçün sözün tam mənasında komediya deyildi?

**2.Komediya janrının əsas xüsusiyyətləri və Aristofan**

Məlum olduğu kimi, “*komediya”* sözü yunan mənşəli olub iki “*komos”* və “*oda”* sözlərinin birləşməsindən yaradılıb. İlkin versiya olaraq *“komosoda”* kimi səslənmişdir. *“Komos”* sözü *sərxoşlar, sərgərdanlar dəstəsi* mənasını, “*oda”* isə *nəğmə* mənasını verir. Sərxoş sərgərdanlar *(komosoda* sözünün mənasına tam uyğun olaraq) müəyyən dəstələrdə birləşir, qışqıraraq, hay-küylə, sərxoşlara məxsus yöndəmsiz hərəkətlərlə şəhərlərə, kəndlərə daxil olur, insanların düşdüyü gülünc vəziyyətləri lağa qoyurdular.

Göründüyü kimi, “*komediya”* sözünün tam hərfi mənası *sərxoşlar, sərgərdanlar nəğməsi* deməkdir. Amma sonralar *komosoda* göstərilərinin müəyyən janr üslubu formalaşdı və buna paralel olaraq *komosoda* sözü də zaman keçdikcə komediya şəklini aldı. [1, s.223]

Ümumiyyətlə, komediyanın əsas mahiyyətini mübahisə, siyasi və ictimai problemlər formalaşdırır. Komediyanın mərkəzində komik obrazlar, tiplər dayanır ki, onlar da cəmiyyətin gülünc cəhətlərini qabartmaqla və şişirtməklə təqdim və ifşa edirlər. İnsan xarakterinin gülünc cəhətlərini, onun düşdüyü gülünc vəziyyətin lağa qoyulması komediyanın əsasını təşkil edir.

Komediya mənfi xüsusiyyətləri diqqət mərkəzinə gətirməklə tamaşaçıların, xalqın şüurunu dəyişdirmək cəhdidir. Bu, əslində xoşbəxt sonluğu olan əsərdir. Komediyanın məqsədi yalnız güldürmək deyil, həm də düşündürməkdir, gülüş yaratmaqla bərabər cəmiyyətdəki haqsızlıqları, özbaşınalığı və nöqsanları ifşa etməkdir.

Komediyada sözlə bərabər ifşaedici tənqidi gülüş də səhnəyə çıxır. Belə demək olar ki, komediyada əsas obraz gülüşdür.[2, s.264]

Komediyanın inkişafında onun parodik imkanları və zamanın məşhur adamlarını lağa qoymaq imkanı mühüm rol oynamışdır. Bu imkanları sayəsində komediya həmişə populyar olmuş və zəngin tarixi inkişaf yolu keçmişdir. [2, s.307]

Klassik komediyanın ən parlaq nümunələrini yaradan Aristofanın əsərlərinin quruluşunda dominant rolu satirik tipikləşmə oynamışdı. Belə komediyalarda tipik satirik xarakterlə sosial konfliktin uzlaşması, sintezi baş tutmuşdur.

**3.Aristofan və ictimai mühit**

Qədim yunan dramaturqu Aristofanın (e.ə. 446-385) yaşayıb-yaratdığı, öz məşhur komediyalarını qələmə aldığı məkan qədim Yunanıstanın mədəni mərkəzi olan Afina şəhəri idi. Aristofanın fəaliyyət zamanı isə Afinanın çiçəkləndiyi bir dövr idi. Bu dövrdə Afina Yunanıstanın ən güclü, ən varlı

şəhər-dövlətlərindən birinə çevrilmişdi. Məhz həmin dovrdə ticarətin yüksək inkişafı sayəsində möhtəşəm məbədlər, teatrlar, heykəltəraşlıq nümunələri və bir çox digər sənət əsərləri yaradılmışdı. Bu dövr, ümumiyyətlə, Afina tarixində incəsənətin ən yüksək inkişaf etdiyi bir dövr kimi səciyyələndirilə bilər. Bu mərhələ eyni zamanda ümumiləşdirilmiş obrazlar incəsənətinin də təşəkkül dövrü idi. Aristofan həmin bu ümumiləşdirilmiş obrazlar incəsənətinin yaradıcılarından biridir.

Dramaturq Afinanın həyatını, yaşadığı mərhələnin hadisələrini real boyalarla təsvir etdiyindən, onun əsərləri əsasında həmin zamanın hadisələri, bütövlükdə qədim Afina haqqında dolğun bilikləri əldə etmək mümkündür. Həmin bu dolğun bilik də dramaturq tərəfindən ümumiləşdirilmiş obrazlar vasitəsilə təqdim olunur.

Ümumiyyətlə, Aristofanın yaradıcılıq illərinə dövrün ümumi kontekstində nəzər salsaq, görə bilərik ki, dramaturqun yaşayıb- yaratdığı bu dövr Afina demokratiyasının dərin böhran keçirdiyi, Afina və Sparta arasında ölüm-dirim mübarizəsi və müharibəsinin baş verdiyi illərə də təsadüf edirdi. Aristofanın komediyalarının əsas ideyası və məzmununu da Afinada baş verən həmin bu hadisələr, cəmiyyətdə cərəyan edən sosial və siyasi ziddiyyətlər təşkil edirdi. Aristofanın yaratdığı ümumiləşdirilmiş obrazlar bu hadisə və ziddiyyətlərin parlaq mücəssəmələri idi.

Dövrünün eybəcərliklərini ifşa etməklə, obrazlarının komik cəhətlərini ön planda göstərməklə, "qəhrəman"ının mənsub olduğu tipin daxili mahiyyətini, məzmununu aşkara çıxarmaqla Aristofan öz komediyalarında zəmanəsinin ümumiləşdirilmiş obrazlarını böyük bir ustalıqla yaratmış, dövrünün tipik obrazlarını aydın bir şəkildə əks etdirmişdir.

Yaratdığı bu obrazlardan hər biri konkret bir nöqsanın ifadəçisi idi. Həmin obrazlar ayrı-ayrılıqda spesifik mənfi xusisiyyətlərin - tamahkarlığın, ikiüzlülüyün, boşboğazlığin, fırıldaqçılığın, rəzilliyin, şərəfsizliyin nümunələri idilər. Bədii obrazlarda ümumi xüsusiyyətləri ön plana çıxarmaqla, mənfi xusisiyyətləri ümumiləşdirilmiş satirik obrazlarda təqdim etməklə, tipik personajların aydın təqdimatını verməklə, Aristofan öz əsərlərində real həyati ziddiyyətləri bədii konfliktə çevrilib xalqa çatdıra bilmişdi.

Böyük dramaturq həyatın ümumi və səciyyəvi cəhətlərini komediyalarında tipik bədii obrazlar vasitəsilə əks etdirmişdi. Tənqid obyektlərinin gülünc xarakterlərini açaraq tipik obrazlar yaratmışdır. Yaratdığı həmin bu ümumiləşdirilmiş obrazlar vasitəsilə dramaturq, cəmiyyətdə müşahidə etdiyi nöqsanları tənqid edərək aradan qaldırmağa, xalqa həyati problemlərin həllində düzgün yol göstərməyə, boşboğazların,

fırıldaqçıların, ikiüzlülərin əsas məqsədlərini açıb göstərməyə, Yunanıstanı müharibə alovundan xilas etməyə çalışırdı.

Dramaturq mənfi tipik obrazlarla yanaşı müsbət tipik obrazlar da yaratmış, komediyalarında sadə xalq içindən çıxmış insanlara xüsusi diqqət ayırmış və onları ümumiləşdirilmiş müsbət obraz nümunələri kimi təqdim etmişdi.

Öz sülhsevər ideyasını təbliğ edən, sadə, zəhmətkeş xalqı düşünən, onun tərəfində dayanan, xalqı müdafiə edən dramaturq, xalqın dünyagörüşünün rasionallaşmasında da mühüm rol oynamışdı.

**4.Aristofanın bizim günlərədək gəlib çatmış əsərlərində ümumiləşdirilmiş obrazlar**

Aristofan yaradıcılığının dəyərli sənət incilərindən yalnız on biri qorunub saxlanmışdır. Onun əsərləri içərisində **“Axarnlılar” (e.ə. 425)** komediyası mühüm yer tutur. Bu əsər Afina və Sparta arasında baş verən müharibədən bəhs edir. Aristofan bu əsərin adını Yunanıstanın “Axarn” bölgəsinin adından götürmüşdür. Bu da heç də təsadüfi deyildi. Axarn bölgəsinin kəndliləri müharibə illərində daha çox fəallıq göstərmişdilər. Bu komediyada dramaturq müharibə dövrünün xarakterini, zəhmətkeş, sadə xalqın çəkdiyi əziyyətlərin aydın təsvirini verərək oxucu və tamaşaçı düşüncələrinə güclü təsir göstərə bilmişdi. [1, s.231]

Həmin əsərdə müəllif insan xarekterlərini, fərdi xarekterlərdəki ziddiyyət və konfiliktlərin toqquşmasını bədii obrazlarda təcəssüm etdirərək, dövrünün ümumiləşdirilmiş, tipik obrazlarını qabarıq bir şəkildə canlandırmışdır. Komediyanın baş qəhrəmanlarından biri olan Dikeopol obrazını müharibə əleyhinə çıxan zəhmətkeş kəndlilərin tipik bir obrazıı kimi, digər baş qəhrəman olan Lamax obrazını isə Afina başçılarının tipik bir nümayəndəsi kimi göstərmişdir. Əsərdə belə bir məqam ön plana çəkilir ki, əkin yerləri dağıdılmış, aclıq və xəstəlikdən, səfalətdən əziyyət çəkən kəndlilər sülhü dəstəklədikləri halda, müharibənin törətdiyi fəsadları aradan qaldırmağa çalışdıqları halda, müharibə tərəfdarları, bundan istifadə edərək varlanan siyasi xadimlər öz şəxsi mənafelərini güdərək müharibəni dəstəkləyir və daha da qızışdırırdılar. Komediyada bu iki tipik obraz - Lamax və Dikeopol obrazları arasında yaranan kəskin mübahisənin aydın təsviri verilməklə, onların həyat yolunu oxucu təsəvvüründə canlandırmağa və tamaşaçı qarşısında nümayiş etdirməyə çalışıb. Aristofan sülh ideyasının bir təbliğatçısı olaraq yaratmış olduğu həmin bu canlı obrazlarda müharibədən əziyyət çəkən zəhmətkeş xalqının, əməksevən yunan kəndlisinin həyatını, ağır vəziyyətini göstərməyə çalışmışdı.

Komediyada diqqəti cəlb edən əsas səhnə Dikeopol və Lamax arasında baş verən mübahisə səhnəsidir. Belə ki, müharibə əleyhinə çıxış edən Dikeopol Spartaya sülh təklif etsə də, sülh bağlamağa razı olmayan müharibə tərəfdarları onu xəyanətkar adlandıraraq, öldürməyə çalışırlar. Lamaxın iştirakı ilə konfilikt daha gərginləşir. Lakin Dikeopol Lamaxın fikirlərini tənqid edərək, müharibənin törətdiyi fəlakətləri, müharibənin Afinanya gətirdiyi bəlaları xalqa çatdıraraq, sülh bağlamasının doğru olduğunu sübut edir. Lamax isə bu mübahisədə Dikeopola qarşı müqamət göstərə bilməyib, məğlub olaraq geri çəkilir, səhnədən çıxır. Sülh tərəfdarı olan Dikeopol qalib gələrək müharibəni sonlandırır və zəhmətkeş kəndlilər də torpaqlarını əkib becərməklə məşğul olurlar. Həyat müşahidələri nəticəsində xalqın həyatını doğru-düzgün əks etdirən dramaturq bu komediyada sülh ideya axınına xidmət etmişdir.

Həmçinin **"Atlılar"** (e.ə. 424) komediyasında da Aristofan dövrünün tipik obrazlarını yaratmağa nail olmuşdu. Dramaturq bu komediyada fırıldaqçılıq, tamahkarlıq, hiyləgərlik kimi mənfi xüsusiyyətlərə malik olan insanların tipik obrazını yaratmaqla xalqın etibarından sui-istifadə edən hiyləgər insanları, xalqa şirin vədlər verərək onu aldadan fırıldaqçıları, tamahkarları gülünc vəziyyətlərdə canlandırmışdı. Həmin komediyada Aristofan ümumiləşdirilmiş obraz kimi Demos adlı yaşlı bir kişi obrazından istifadə etmişdi ki, bu adın da mənası Yunan dilində "xalq" deməkdir. [1, s.236]

Dramaturq həmin bu ümumiləşdirilmiş obraz vasitəsilə yunanların zadəgan olmayan hissəsinin tipik nümayəndəsini göstərməyə çalışmışdır. Əsərdə Demos qocalmış, haldan düşmüş, sadəlövh, hamıya inanan, öz müqəddəratını özü həll edə bilməyən bir şəxs kimi təsvir edilir. Komediyanın digər obrazları isə Paflaqonlu dabbağ və Kolbasaçı obrazlarıdır ki, bunların arasında da qoca Demosun evinin idarə edilməsi uğrunda qızğın mübarizə gedir. Onların hər ikisi hiyləgərdir, dələduzdur, şirin vədlərlə Demosun evinin idarə edilməsini öz əlinə almaq istəyirlər. Nəhayət sonda Kolbasaçı daha güclü hiylə işlədərək qoca Demosun evinin idarə etməsinə nail olur. Aristofan Demos obrazı vasitəsilə xalqın acınacaqlı vəziyyətini, Paflaqonlu dabbagın simasında isə Afina demokratiyasının başçısı Kleonun əməllərni açıb göstərmişdir. Onun komediyalarında Kleon ən çox tənqid edilən simalardan biri idi. Kolbasaçı obrazında isə Aristofan konkret bir şəxsi nəzərdə tutmamışdı.

Aristofanın dəyərli əsərlərindən biri olan "**Buludlar**" (e.ə. 423) komediyasınısında da insan xarekteri tipik obrazda canlandırılmışdir. Bu

tipik obraz sofist obrazıdır. Sofistlərin əleyhinə yazılmış bu əsərdə onlar boşboğaz, fırıldaqçı, hiyləgər mübahisəçilər adlandırılır.

Aristofana görə sofistlərin əsas məqsədi mübahisədə ədalətli, düzgün qərara nail olmaq deyil, necə olursa olsun, hansı yolla olursa olsun mübahisəni udmaqdır. O, belə hesab edir ki, sofistlər müxtəlif inandırma vasitələrindən, danışıq formalarından, ritorik vasitələrdən məharətlə istifadə etməklə, mübahisəni ədalətsizcəsinə udmağı, hiyləgərlikləri öyrədirlər. Maraqlıdır ki, Aristofan sofistlərin ümumiləşdirilmiş obrazı kimi Sokratın şəxsiyyətini ön plana çəkmişdir. Müəllifin əsas tənqid hədəfi - Sokrat və onun məktəbidir. Sokrat məktəbinin təmsilçiləri Aristofanın gözündə adət-ənənələri saymayan qeyri-əxlaqi tiplər və təhlükəli inqilabçılar idilər.

Sokrat tacir dükanları və sənətkarların emalatxanarında yerləşən, Aqora adı ilə tanınan bazar meydanında insanlarla söhbət edərək onları öz əməlləri və həyatı barədə düşünməyə və həmçinin öz hərəkətləri barədə fikir yürütməyə məcbur edirdi. O xüsusilə cavanları özünə cəlb edir, öz ətrafına toplayıb söhbətə tutur və çoxlu suallar verirdi. Həqiqi Sokrat doğrudan da belə idi. Amma Aristofanın təqdim etdiyi Sokrat heç də bir Afinalı mütəfəkkir görkəmində olmayıb, Afinanın düşməni görkəmində idi. Aristofan belə hesab edirdi ki, Sokrat insanlarla, xüsusən də gənclərlə söhbətlər edərkən onları Afina demokratiyasına qarşı yönəldir, insanları aristokratiyaya ruhlandırırdı, qarşısındakıları Afina demokratiyasının əleyhinə olmağa çağırır. Gənclər Sokratın Afina demokratiyasına qarşı etdiyi satirik təhlillərdən həzz alırdılar. Afinanın yaşlı vətəndaşları isə demokratiya tərəfdalatı idilər və adət- ənənəyə bağlı insanlar idilər. Onların fikrincə Sokrat gəncləri öz ətrafına cəlb edərək, onlara coxlu qarışıq suallar verməklə onları korlayırdı. [1, s.239]

Əsərdə dramaturq, oğlu üzündən borca düşən Strepsiad adlı sadə bir kəndlini Sokrata qarşı qoymuşdu. Borcu ödəyə bilməyən Strepsiad oğlunu Sokratın məktəbinə qoyur ki, oğlu Sokratdan yalan danışmaq, insanları aldatmaq dərsini alsın və o da borc sahibini aldatmaq yolu ilə canını qurtarsın. Lakin onun burada öyrəndiyi yalanın, firildaqçılığın heç bir xeyri olmadığını görən Strepsiad anlayır ki, düzgün yol- aldığı borcu geri qaytarmaqdan ibarətdir. Sonda bütün əxlaqsızlıqların və bədbəxtliklərin bu məktəbdən gəldiyini düşünən Strepsiad Sokratın məktəbini yandırır. Qoca keçmiş dövrü tərifləyir, cavanları korlayan Sokratı lənətləyir, Sokrata və bütün sofistlərə nifrətlər yağdırır. Aristofan Sokratı gülünc vəziyyətlərdə təsvir etməklə ümumiləşdirilmiş sofist obrazını yaradır və sofistikasını kəsin tənqid atəşinə məruz qoyur.

Aristofan yaşadığı dövrün hadisələrindən birini də **“Arılar”** (e.ə. 422) komediyasında təsvir etmişdi. Dramaturq burada öz dövrünün məhkəmələrini ifşa etmiş, bütün gününü məhkəmədə keçirən məhkəmə həvəskarlarını, məhkəməpərəstləri tənqid etmiş, istehza ilə yanaşdığı bütün bu şəxslərin ümumiləşdirilmiş obrazını yaratmışdır.

Əsərdə əsas münaqişə ata ilə oğul arasında baş verir. Burada ata həmin o məhkəmə həvəskarlarının, məhkəməbazların ümumiləşdirilmiş obrazıdır, tipik bir nümayəndəsidir.

Məşhur dramaturq Afina və Sparta arasındakı müharibəsi haqqında **“Sülh”** (e.ə. 421) adlı komediya yazmış və burada sülh və müharibə tərəfdarlarının ümumiləşdirilmiş obrazlarını yaratmışdır. Bu komediya müharibə haqqında əsər olmaqdan daha çox, əslində müharibə əleyhinə əsər idi. Müəllif burada sülh tərəfdarları olaraq kəndliləri və onlar ücün müxtəlif alətlər düzəldən sənətkarları, müharibə tərəfdarları olaraq isə silah hazırlayan emalatxana sahiblərini təsvir etmişdir. Bu komediyada sülh tərəfdarları olan kəndlilərin tipik obrazı Tukey idi. Tukey də “**Axarnlılar**” komediyasının personajı olan Dekopol kimi sülhü dəstəkləyən sadə xalqın nümayəndəsi idi. Lakin Tukey Dekopoldan fərqli olraq bütün Yunanıstanda sülh olmasını istəyirdi. Komediyasının əsas məqsədi də Afina ilə Sparta arasındakı müharibənin sona çatdırılması və sülh müqaviləsinin bağlanması idi.

Aristofan xalqını düşünən bir dramaturq idi. O, fikirləşirdi ki, heç bir xüsusi mülkiyyətçilik olmasa, xalq daha xoşbəxt və daha firavan yaşaya bilər. Qulların çəkdiyi əziyyətlərə biganə qala bilmirdi, elə bir cəmiyyət, dövlət arzulayırdı ki, orada qullar olmasın. O, bu istəyini özünün digər əsərlərində *(Quşlar, Lisistrata, Xalq məclisində qadınlar, Sərvət)* qələmə almışdır. Həmin əsərlərdə o, məhz arzuladığı cəmiyyəti əks etdirmişdi.

**“Quşlar”** (e.ə. 414) komediyasında Pistefer obrazı müsbət bir obraz olaraq xalqı xoşbəxt edən, onu düşünən bir dövlət başçının obrazıdır.

Aristofan öz əsərlərində bundan öncə də dövlət başçısı obrazını dəfələrlə yaratmışdı. Amma həmin əsərlərdə dövlət başçısı bir qayda olaraq mənfi obraz idi. Yalnız, **“Quşlar”** komediyasında dramaturq dövlət başçısı obrazını müsbət bir obraz kimi qələmə almışdı. Pistefer “*yerlə göy arasında, quşların yanında*” yeni bir dövlət yaradır və Afinada çəkişmələrdən əziyyət çəkən əhali buraya gəlməyə başlayır. Pisteferin yaratdığı həmin bu dövlətdə hamı xoşbəxtik, bolluq, əmin-amanlıq içərisində həyat sürür. Burada Pistefer obrazı müdrik hökmdarın ümumiləşdirilmiş, tipik bir obrazıdır. [1, s.242]

**“Lisistrata”** komediyasını Aristofan e.ə. 411-ildə tamaşaya qoymuşdu. Burada Lisistrata qadınları başına toplayaraq müharibə əleyhinə çıxır. Bu komediyanın əsas ideyası vətənpərvərlik, sülhsevərlik idi. Lampitodo

Lisistratadan ilhamlanaraq Sparta qadınlarını başına toplayıb müharibə əleyhinə cıxış edir. Həm Lisistrata, həm də Lampitodo mübariz Yunan qadınının tipik obrazlarıdır. Digər tipik obraz isə Probuldur.

Komediyalarında Afina başçılarının tənqidi xüsusi yer tutan Aristofan bu komediyada Probulun simasında Afina başçılarının tipik mənfi obrazını yaratmışdır. Başqa əsərlərində olduğu kimi burada da Aristofan onları ələ salır, gülünc vəziyyətlərdə təqdim edirdi. Əsərin baş personajlarından olan Probul xalqı əzən, incidən, xalqın mənafeyinə biganə qalan, şöhrətpərəst Afina başçılarının tipik obrazı idi.

**“Xalq məclisində qadınlar”** (e.ə. 392) komediyasında Aristofan qadınların mübarizliyini əks etdirən tipik yunan qadını obrazını yaratmışdır.

Məlumdur ki, o dövrdə iri şəhərlərin (polislərin) idarə olunmasında yalnız kişilər iştirak edə bilərdi. Qadınların səs vermək hüququ olmadığı üçün xalq məclislərində, yığıncaqlarda qərarların qəbul edilməsində, qadınlar iştirak edə bilməzdilər. Lakin Aristofanın bu komediyasında, adından da göründüyü kimi qadınlar xalq məclisidə, hətta bir çox qərarların qəbul olunmasında iştirak da edirdilər.

Aristofan bu komediyada yunan qadının ümumiləşdirilmiş obrazı kimi Praqsaqor obrazı yaratmışdır. Praqsaqorun simasında cəsarətli, iradəli yunan qadının tipik obrazını görürük. Onun yaratdığı bu qəhrəman qadın bir çox qadınları ətrafına toplayaraq, ərlərinin paltarında, xalq məclisinə daxil olurlar. Məclisdə bir çox qərarların qəbul olunmasında iştirak edirlər.

Aristofan bu komediyasında da ideal dövlət yaratmaq ideyasını irəli sürür. Cəmiyyətin yenidən qurulmasını, qadınların da iştirakı şərti ilə həqiqi demokratiyanın yaradılmasını arzulayır.

**“Sərvət”** (e.ə. 388) komediyasında isə Aristofan xalqın tərəfində dayanaraq, xalqın müdafiəçisi kimi dövlət başçılarını tənqid edirdi. Burada dramaturq Sərvət allahı simasında dövlət başçısını nəzərdə tutaraq, onun ümumiləşdirilmiş mənfi obrazını yaradır.

Bu dövlət başçısı ədalətsizdir. Çünki Aristofan belə hesab edir ki, dövlətin başçısı dövlətin gəlirlərini bərabər bölməlidir. Bu dövlət başçısı kor olduğu üçün ədaləti və ədalətsizliyi bir-birindən fərqləndirə bilmir.

Komediyada bir yoxsul kəndli ədalətliliyi və ədalətsizliyi bir-birindən fərqləndirmək qabiliyyətinə malik olmayan həmin Sərvət allahını məbədə aparıb gözlərinin sağalmasına nail olur.

Sərvət allahının gözü açıldıqdan sonra haqq-ədalət öz yerini tapır və zəhmətkeş xalq varlanmağa, müftəxorlar isə müflisləşməyə başlayırlar. Aristofan bu əsərində də həmçinin ideal bir dövləti nəzərdə tuturdu.

## 5.Nəticə

Komik dram janrının banisi Aristofan həyatda nifrət doğuran hadisələrin mahiyyətini öz komediyalarının ümumiləşdirilmiş obrazları vasitəsilə oxuculara aydın bir şəkildə açıb göstərə bilmişdir.

Onun əsas tənqid hədəfi dövrünün siyasi xadimləri, müharibəni qızışdıran dövlət başçıları, zəhmətkeş xalqı aldadan dələduzlar, həmçinin yunan məhkəmələri və bütün gününü bu məhkəmələrdə keçirən məhkəmə düşkünləri olmuşdur.

Müharibə əleyhinə və dövrünün siyasi xadimləri əleyhinə yönələn komediyalarında Aristofan müharibəpərəst adamları, bundan istifadə etməklə varlanan dövlət başçılarını, siyasi xadimləri gülünc vəziyyətdə təqdim etməklə, müharibənin törətdiyi fəlakətləri təsvir edərək müharibə tərəfdarlarını kəskin ifşa etmişdir.

## ƏDƏBİYYAT

1. Sultanlı, Ə. (2011). Antik ədəbiyyat tarixi. Bakı, Elm və təhsil, 517s.
2. Şəmsizadə, N. (2012). Ədəbiyyat nəzəriyyəsi. Bakı, Proqres, 434s.
3. Əliyev, R. (2008). Ədəbiyyat nəzəriyyəsi. Bakı, Mütərcim, 360s.

## Обобщенные образы комедий Аристофана

**Наиля Асадова***

**Абстракт.** Аристофаном были созданы художественные образы, отражающие общие и свойственные особенности жизни. Эти художественные образы специфическими особенностями выражали высшие особенные черты самого бытия. Не изучив такие особенные черты невозможно распознание смысла общего.

Аристофан как мастер типических образов, в своих комедиях при помощи художественно-обобщенных образов добился конкретного, полного разъяснения сущности общественных идей и жизненных событий. Распознавание типических особенностей людей, а также навыки возвышения их до степени художественной обобщенности и отражение философских взглядов обогащают комедии драматурга. Все

* Доктор философии по философии,
Ведущий научный сотрудник отдела «Эстетики» Института Философии и Социологии НАНА; Баку, Азербайджан
E-mail: nailya_asadova@inbox.ru
https://orcid.org/0000-0002-0572-2454
**Цитировать статью:** Асадова, Н. [2022]. Обобщенные образы комедий Аристофана. *Журнал «Metafizika»*, *5*(3), с.58-67.

***История статьи:***
*Статья поступила в редакцию: 23.05.2022*
*Отправлена на доработку: 03.07.2022*
*Принята для печати: 03.09.2022*

перечисленные философские обобщения, свойственные стереотипам мировоззрения конкретных типов людей, отраженные в художественных произведениях Аристофана, являются основными особенностями его творчества и отражают систему философских взглядов драматурга.

**Ключевые слова:** Аристофан, Афины, типичные свойства, драматург, обобщенные образы, жанр драмы, комедия

## Generalized Characters in Aristophanes' Comedies

**Naila Asadova***

**Abstract.** Aristophanes created fictional characters that reflect the general and specific aspects of life. These characters express the spesficic features of the characters they reflect. Without this specific aspect, it is impossible to understand the meaning of the generic characters.

As a master of typical characters, through the fictional characters, Aristophanes was able to express social ideas and the essence of life events in his comedies concretely and clearly.The ability to distinguish the typical features of people, to raise them to the level of artistic generalization, as well as the reflection of their philosophical views enriches the dramatist's comedies.All these philosophical generalizations, the reflection of worldview stereotypes belonging to a specific type of people in an artistic work, are the main features of Aristophanes' work, an expression of the playwright's system of philosophical views.

**Keywords:** Aristophanes, Athens, typical aspect, dramatist, generalized image, drama genre, comedy.

## REFERENCES

1. Sultanli, A. (2011). History of ancient literature. Baku, Elm ve tehsil, 517 p. (in Azerbaijani)
2. Shamsizade, N. (2012). Theory of Literature. Baku, Proqres, 434 p. (in Azerbaijani)
3. Aliyev, R. (2008). Theory of Literature. Baku, Mutercim, 360 p. (in Azerbaijani)

* Doctor of Philosophy,
Seniour researcher at Institute of Philosophy and Sociology of ANAS; Baku Azerbaijan
E-mail: nailya_asadova@inbox.ru
https://orcid.org/0000-0002-0572-2454

**To cite this article:** Asadova, N. [2022] Generalized Characters in Aristophanes' Comedies. *“Metafizika” journal, 5*(3), pp.58-67.

***Article history:***
*Received: 23.05.2022*
*Accepted: 03.09.2022*